# ATMU-nun tələbələri "Azərbaycan – Avstriya Turizm Proqramı"nda

**Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) yarandığı ilk gündən özünün beynəlxalq əlaqələrinin yaradılması-na və genişləndirilməsinə xüsusi diqqət ayırır. Məhz bu səbəbdən də 2007-ci il iyul ayının 4-də Azərbaycanın təhsil təcrübəsində ilk dəfə olaraq, ATMU və Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti (IMC Krems TEU) ilə "Tourism and Leisure Managament" ixtisası üzrə ikili diplom müqaviləsi imzalanmışdır. Artıq 12 ildir ki, davamlı olaraq "Azərbaycan – Avstriya Turizm Proqramı" (AATP) fəaliyyət qöstərərir.**



ATMU və IMC Krems TEU arasında imzalanmış "Turizm və qonaqpərvərlik xidməti üzrə təhsil sahəsində əməkdaşlıq müqaviləsi"nin şərtlərinə əsasən, IMC Krems TEU-nun Avstriya üzrə AATP proqram direktoru Yens Peter Ennen və Azərbaycan üzrə AATP proqram meneceri Humay Cəfərlinin iştirakı ilə bu günlərdə Azərbaycan–Avstriya Turizm Proqramı çərçivəsində "AATP BA Cohort 2019" qrupunun yaradılması fikri irəli sürülmüşdür. Eyni zamanda, qrupun yaradılması məqsədilə Y.P Ennen və H. Cəfərli ATMU-da iki mərhələdə müsahibələr keçirmişlər. Müsahibələrin nəticəsinə əsasən, 28 nəfər tələbə "AATP BA Cohort 2019" qrupunda təhsil almaq hüququ əldə etmişdir.

Bu günədək Azərbaycan--Avstriya Turizm Proqramı üzrə ümumilikdə, 216 nəfər (203 nəfər bakalavr və 13 nəfər magistr) Azərbaycan təhsili tarixində ilk dəfə olaraq hər iki ali təhsil ocağının diplomuna sahibləniblər. Hazırda proqram üzrə bakalavr pilləsində 77, magistr pilləsində isə 5 nəfər tələbə təhsil alır.

**Z.BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2019.- 1 oktyabr.- S.8.